**Salmanov B.** Qubadlı: tarixi qələbənin qəhrəmanlıq səhifəsi // Respublika. - 2024. - 25 oktyabr. - **№ 235**. - S. 7.

**Şərqi Zəngəzurun şəfalı bölgələrindən biri də Qubadlıdır. Qədim zamanlardan bəri bu ərazilərdə Azərbaycan xalqı məskunlaşıb və burada zəngin mədəniyyət, adət-ənənələr formalaşıb.**

Xatırladaq ki, rayon 1993-cü il avqustun 31-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Qubadlı şəhəri və rayonun 93 kəndi erməni qüvvələrinin nəzarətinə keçdi, rayonun 31 mindən çox əhalisi yurd-yuvasından didərgin düşdü. Erməni işğalçıları tərəfindən rayon ərazisində geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, mineral maddələrlə zəngin su mənbələri istismar olunub, özünün qeyri-adi flora və faunası ilə seçilən əsrarəngiz təbiət guşələri dağıdılaraq məhv edilib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman əsgərlərimizin şücaəti və xalqımızın birliyi sayəsində bu gün biz Qubadlının işğal tarixini deyil, artıq onun işğaldan azad edilməsi tarixini qeyd edirik. Prezident cənab İlham Əliyev Qubadlı rayon ictimaiyyəti ilə görüş zamanı da bildirmişdi ki: "bu, doğrudan da, Azərbaycanın tarixində əbədi yaşayacaq bir gündür. 25 Oktyabr - Zəfər Günü, Qubadlının azad olunması günüdür. 27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik. Əgər qubadlılılar digər keçmiş köçkünlər kimi, hər il böyük ürəkağrısı ilə işğal günündə yığışırdılarsa, bundan sonra artıq o tarix tamamilə silindi, ancaq 25 oktyabrda hamımız bayram edəcəyik".

Qubadlının azad olunması ilə silahlı qüvvələrimizin Laçın istiqamətində əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar əldə olundu. Ordu bölmələrinin irəliləməsi üçün Hadrut-Şuşa istiqamətində isə kifayət qədər geniş şərait yarandı. Laçın istiqamətinə yol açıldı. Bunu işğalçı dövlətin silahlı qruplaşmaları da bildiklərindən şəhərdə güclü istehkamlar qurmuşdular. Hətta yüksəkliklər də düşmənin nəzarətində idi. Bu mənada, Qubadlını azad etmək üçün, ilk növbədə, həmin yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusunun bölmələri bu peşəkarlığı döyüş meydanında göstərdilər.

Oktyabrın 20-də Zəngilan şəhəri işğaldan azad olunduqdan sonra, təbii ki, növbəti istiqamət Qubadlı idi. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri və strateji yüksəkliklər azad olundu. Nəhayət, oktyabrın 25-də şəhər erməni silahlı birləşmələrindən təmizləndi. Əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-na qədər Qubadlı şəhəri və rayonun 41 kəndi azad olundu.

44 günlük Vətən müharibəsi Azərbaycanın şanlı qələbəsi ilə nəticələndi və bütün torpaqlar işğaldan azad edilərək, ərazi bütövlüyü bərpa olundu. 2020-ci il noyabrın 26-da "Qubadlının azad olunmasına görə" medalı təsis edildi. Rayonun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 15189 hərbi qulluqçusu Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Rayon Azərbaycan tarixinə görkəmli şəxsiyyətlər vermişdir. Qubadlıda Qaçaq Nəbidən, Əliyar Əliyevdən başlanan qəhrəmanlıq yolu bu gün qəhrəman və igid oğullarımız tərəfindən davam etdirilir. Onu da vurğulayaq ki, müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycan Respublikasının bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı. Hazırda rayonun bəzi kəndləri, o cümlədən Qubadlı şəhəri yenidən bərpa edilir, doğma yurda həyat yenidən qayıdır. Bu gün bu şanlı qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, indiki və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək. Müharibədə böyük hünər göstərən, düşmənə qan udduran qazi və veteranların şücaəti də vətənimizin bütövlüyündə əvəzedilməzdir. Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşan veteranlarımızdan biri də Elnur Osmanlıdır.

Cəsur döyüşçümüz 2020-ci il sentyabrın 29-da döyüş bölgəsinə yollanıb. 20 gün Cəbrayıl və Zəngilan istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 20-də Xanlıqdan Fərzan kəndinə kimi olan istiqamətdə gedən döyüşlərdə düşmənə sinə gərərək vətənimizin bütövlüyü uğrunda döyüş yoldaşlarıyla birgə məharətlə igidlik nümayiş etdirərək ermənilərə Azərbaycan ordusunun necə güclü və dözümlü döyüşçüləri olduğunu göstəriblər. Elnur Osmanlı deyir ki, Qubadlının azad

olunduğu günün sevinci əbədi olaraq yaddaşıma həkk olunub: "Oktyabrın 25-də rabitə aparatından aldığımız o möhtəşəm xəbər - Qubadlının azad olunması bizi daha çox ruhlandırdı. Artıq bayrağımız Qubadlı şəhərində də dalğalanmağa başladı". Qəhrəman əsgərimiz onu da qeyd etdi ki, oktyabrın 31-i düşmən ordusu geri çəkilərkən onları 82 və 120 mm-lik minaatanlardan atəşə tutdu. Bu təxribat nəticəsində hündürlüyü 1100 metr olan dağ ərazisində Yadigar Vahabov qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Cümşüd Səfərov, Nurlan Yaqubov, Elməddin Salmanov müxtəlif bədən xəsarəti aldılar.

Sözsüz ki, Qubadlı üçün ən əlamətdar günlərdən biri də 2020-ci il dekabrın 23-də Prezident İlham Əliyevin rayonda şanlı bayrağımızı ucaltmasıdır. Təbii ki, ölkə başçısının Qubadlıya hər səfəri mühüm hərbi və infrastruktur obyektlərinin açılışı, təməlqoyma mərasimləri ilə yadda qalır. Bu gün Qubadlı rayonunda böyük bərpa-quruculuq həyata keçirilir, rayonun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Azad edilmiş torpaqlarda artıq bir neçə yarımstansiya inşa olunub.

Qubadlı şəhəri həm coğrafi mövqeyi, həm də tarixi baxımdan mühüm əhəmiyyətə malikdir və dövlətimiz bu bölgənin bərpasını prioritet hesab edir. Yenidənqurma çərçivəsində şəhərdə infrastruktur layihələri həyata keçirilir, o cümlədən yolların, su, elektrik və qaz təchizatı sistemlərinin bərpası və müasirləşdirilməsi aparılır. Həmçinin Qubadlıda yeni yaşayış binalarının tikintisi, məktəblərin, xəstəxanaların və digər sosial obyektlərin yaradılması nəzərdə tutulur. Bərpa prosesində "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi həyata keçirilir, bu da texnoloji həllərin və dayanıqlı inkişaf prinsiplərinin prioritet olacağını göstərir. Dövlətimizin başçısı dəfələrlə Qubadlıya səfər edərək, burada gedən bərpa-quruculuq ilə tanış olub və layihələrin icra müddətləri ilə bağlı məlumatlar alıb. Dövlətin əsas məqsədi şəhərin tamamilə bərpa edilməsi və sakinlərin geri qayıtması üçün uyğun şəraitin yaradılmasıdır. Bu da qubadlılıların çox qısa zamanda öz yurd-yuvalarına dönüb əbədi, xoşbəxt yaşamasına zəmin yaradır. Sözsüz ki, erməni faşizmi vaxtilə işğalda saxladığı digər rayonlarımız kimi, Qubadlıda törətdiyi vəhşiliklərə görə də beynəlxalq hüquq qarşısında cavab verəcək. Çünki Ermənistan digər rayonlarda olduğu kimi, Qubadlıda da çoxsaylı hərbi cinayətlər törədib. Cenevrə konvensiyalarına zidd olaraq işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma aparılıb. Bütün bu faktlara əsasən Hayastan beynəlxalq hüquq qarşısında cavab verməli olacaq.

Tarixi Qələbə günlərinin əbədiləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, oktyabrın 25-i Qubadlı Şəhəri Günü təyin edilib. Qubadlı Şəhəri Günü həm də bu bölgənin əhalisi üçün bir bayramdır. Şəhərin azad edilməsi ilə burada yenidən həyat canlanmağa başladı və doğma yurda qayıdan insanlar bərpa-yenidənqurmaya öz töhfələrini verməyə çalışırlar. Hər il bu əlamətdar gün münasibətilə Qubadlıda müxtəlif tədbirlər, mərasimlər keçirilir, şəhərin tarixi, mədəniyyəti və qəhrəmanlıq mübarizəsi yad edilir.